**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**QƏRAR**

**№ 028/522**

**Bakı şəhəri** „30" aprel **2026-cı il**

# Bəzi heyvan bazarlarında aparılmış qiymətləndirmələrin nəticələri və görüləcək tədbirlər haqqında

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 15.10.2025-ci il tarixli 062/468 nömrəli "Ölkə ərazisinin xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması üçün epizootoloji nəzarətin gücləndirilməsi haqqında" qərarına əsasən, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının son dövrlərdə yaydığı rəsmi məlumatlar nəzərə alınmaqla, respublika ərazisində bioloji təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə heyvan bazarlarının fəaliyyəti 25.10.2025-ci il tarixindən etibarən müvəqqəti dayandırılmışdır.

Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın (bundan sonra – Qaydalar) müvafiq tələblərinə riayət edilməsi məqsədilə Agentliyin 12.12.2025-ci il tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən aparılmış qiymətləndirmə nəticəsində Qəbələ rayonu, Nic kəndində yerləşən fərdi sahibkar Qəribova Lamiyə Nizami qızına və fərdi sahibkar Qəribov Ramiz Həmdiyə oğluna məxsus, Balakən rayonu, Hənifə kəndində yerləşən "SOLTAN" MMC-yə məxsus, Balakən rayonu, Balakən şəhəri, Atatürk prospekti 4 ünvanında yerləşən "Balacans İnşaat" MMC-yə məxsus və Qazax rayonu, Qazax şəhəri, N.Nərimanov prospekti 72 ünvanda yerləşən fərdi sahibkar Əliyev Şahin Meydan oğluna məxsus heyvan bazarlarının qeyd olunan Qaydaların tələblərinə uyğun olmadığı aşkarlanmışdır. Şəki rayonu, Şəki şəhəri, Salman Mümtaz küçəsində yerləşən "Şəki Bazar" ASC-yə məxsus, Zaqatala rayonu, Əliabad kəndində yerləşən fərdi sahibkar Sulxayev Ədalət Məmməd oğluna məxsus, Cəlilabad rayonu, Təzəkənd kəndi ərazisində yerləşən fərdi sahibkar Dadaşov Eldar Dadaş oğluna məxsus, Cəlilabad rayonu, Cəlilabad şəhəri Məhəmməd Hadi küçəsində yerləşən fərdi sahibkar Allahverdiyev Namiq Ulla oğluna məxsus və Cəlilabad rayonu, Sərhədabad kəndi ərazisində yerləşən fərdi sahibkar Təhməzov Elşad Zakir oğluna məxsus heyvan bazarlarında isə aradan qaldırılması mümkün olan uyğunsuzluqlar müəyyən edilmişdir.

Aparılmış qiymətləndirmələrin nəticəsi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

**1.** Agentliyin Kollegiyasının 17.10.2024-cü il tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"na uyğun olaraq, Agentliyin 12.12.2025-ci il tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən aparılmış qiymətləndirmənin aşağıdakı nəticələri nəzərə alınsın:

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

30.04.2026

**1.1.** Qəbələ rayonu, Nic kəndində yerləşən fərdi sahibkar Qəribova Lamiyə Nizami qızına və fərdi sahibkar Qəribov Ramiz Həmdiyə oğluna məxsus, Balakən rayonu, Hənifə kəndində yerləşən "SOLTAN" MMC-yə məxsus, Balakən rayonu, Balakən şəhəri, Atatürk prospekti 4 ünvanında yerləşən "Balacans İnşaat" MMC-yə məxsus və Qazax rayonu, Qazax şəhəri, N.Nərimanov prospekti 72 ünvanda yerləşən fərdi sahibkar Əliyev Şahin Meydan oğluna məxsus heyvan bazarlarının fəaliyyəti məqsədəuyğun hesab edilməsin.

**1.2.** Şəki rayonu, Şəki şəhəri, Salman Mümtaz küçəsində yerləşən "Şəki Bazar" ASC-yə məxsus, Zaqatala rayonu, Əliabad kəndində yerləşən fərdi sahibkar Sulxayev Ədalət Məmməd oğluna məxsus, Cəlilabad rayonu, Təzəkənd kəndi ərazisində yerləşən fərdi sahibkar Dadaşov Eldar Dadaş oğluna məxsus, Cəlilabad rayonu, Cəlilabad şəhəri Məhəmməd Hadi küçəsində yerləşən fərdi sahibkar Allahverdiyev Namiq Ulla oğluna məxsus və Cəlilabad rayonu, Sərhədabad kəndi ərazisində yerləşən fərdi sahibkar Təhməzov Elşad Zakir oğluna məxsus heyvan bazarlarında mövcud olan uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra həmin obyektlərdə Agentliyin müvafiq əmri ilə yaradılmış işçi qrupu tərəfindən təkrar qiymətləndirmə aparılsın.

**2.** Agentliyin Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən sözügedən heyvan bazarları sahiblərinə bu qərar barədə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin və görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, eləcə də aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

30.04.2026